# ƏHMƏDOV BAYRAM BAXŞƏLİ OĞLU
# (1935-2012)
# Dilçi

28 aprel 1935-ci ildə anadan olmuşdur. 1953-cü ildə Ağdaş Pedaqoji Texnikumunu bitirərək Qazax rayonunun Dağkəsəmən kəndində müəllim işləmişdir. 1954-1959-cu illərdə Azərbaycan Dövlət Pedaqoji Univer-sitetinin Tarix-filologiya fakültəsində təhsil almışdır. 1967-ci ildə namizədlik, 1992-ci ildə doktorluq disserta-siyası müdafiə etmişdir. 1970-ci ildə ADPU-nun Azərbaycan dilçiliyi kafed-rasında baş müəllim, dosent vəzifələrində çalışmışdır.

1992-1997-ci illərdə Azərbaycan Tibb Universitetinin Azərbaycan dili kafedrasında işləmişdir. 1994-cü ildə professor elmi adı almışdır. 1997-ci ildən BDU-nun Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasında çalışmışdır. 1999-2012-ci illərdə BDU-nun Azərbaycan dilçiliyi kafedrasında işləmişdir.  14 kitab, 63 elmi məqalənin müəllifidir.